# Şimal-Qərb Universiteti

Şimal-Qərb Universiteti *(Northwestern University)* ABŞ-ın İllinoys ştatının Çikaqo şəhərindən şimalda Evanston adlanan şəhərətrafı qəsəbədə yerləşir. ABŞ-ın " US News & World Report" jurnalının 2016-2017-ci tədris ili üçün dünya reytinq cədvəlində 25-ci, milli universitetlərin reytinqində 12-ci, Böyük Britaniyanın "Times Higher World Universities Rankings" jurnalının reytinqinə əsasən 20-ci, "QS World University Rankings"in sıralamasında isə 26-cı yerdədir. Universitet 1917-ci ildən Amerika Universitetləri Assosiasiyasının üzvüdür. Şimal-Qərb Universiteti ABŞ-da texnologiya və kommunikasiya sahələrinin sürətli inkişafına görə tanınır.

**Yerləşir:** ABŞ, İllinoys ştatı, Çikaqo şəhəri, Evanston
**Yaranma tarixi:** 1851-ci il
**Tipi:** Özəl
**Akademik heyəti:** 3401 nəfər
**Tələbələrin ümumi sayı:** 21000 nəfər
**Rəsmi saytı:** www.northwestern.edu





*Universitetin Nanolaboratoriyasında*



*Universitetin kitabxanasında*



*2016-cı ilin məzunları*

## Tarixi

Şimal-Qərb Universitetinin tarixi 1850-ci il mayın 31-dən başlayır. Həmin gün Çikaqo şəhərinin doqquz biznesmeni Uest-Leyk küçəsində yerləşən vəkillik kontorunda toplaşaraq yeni ali təhsil müəssisəsinin yaradılmasını müzakirə edib. Həmin dövrdə Çikaqo şəhəri burada kampus salmaq üçün əlverişsiz görünürdü. Universitetin yaradılmasında Çikaqo ticarət birjasının yaradıcısı Orrinqton Lant və dəmiryol maqnatı Con Evansın müstəsna xidmətləri olub. C.Evans ilk olaraq Çikaqonun şimalında bataqlıq ərazini qurudaraq özünə ev tikdirib. Həmin əraziyə onun şərəfinə Evanston adı verilib. 1851-ci il yanvarın 28-də C.Evans və O. Lantın birgə səyi nəticəsində İllinoys ştatının Baş Assambleyası Şimal-Qərb Universitetinin yaradılması haqqında qanun qəbul edib və Şimal-Qərb Universiteti İllinoys ştatında təsdiq edilən ilk ali təhsil müəssisəsi olub. 1853-cü ildə C.Evans universitet üçün Miçiqan gölünün yaxınlığında 25000 dollara geniş ərazi alıb. Universitetin ilk prezidenti Klark Hinman Evanston ərazisində universitetin binalarının tikintisinə başlayıb. Şimal-Qərb Universitetinin rəsmi açılışı 1855-ci il noyabrın 5-də baş tutub. Elə həmin tarixdə ali məktəbin ilk binası-Qədim Kollec istifadəyə verilib və Uilyam Cons tərəfindən Şimal-Qərb Universitetinin Qızlar Kolleci yaradılıb. 1873-cü ildə Evanston Qızlar Kolleci Şimal-Qərb Universitetinin Qızlar Kolleci ilə birləşdirilib və təhsil müəssisəsinin dekanı qadınların hüquqlarının müdafiəsi ilə tanınan Frensis Uillard təyin edilib. 1870-80-ci illərdə Şimal-Qərb Universitetində Hüquq, Tibb və Stomatologiya məktəbləri yaradılıb. 1890-cı ildə universitetdə təhsil alan tələbələrin sayı xeyli artıb. Universitetin prezidenti Henri Ueyd Rocers tədrisin tədqiqatlarla birgə aparılması haqqında proqram qəbul edib. 1917-ci ildə Amerika Universitetləri Assosiasiyası Şimal-Qərb Universitetini öz üzvlüyünə dəvət edib. 1920-1939-cu illərdə universitetin prezidenti Valter Dill Skottun rəhbərliyi altında Dayç stadionu və Dirinq kitabxanası daxil olmaqla, təhsil ocağının geniş kampusu tikilib. 1933-cü ildə Şimal-Qərb Universitetinin Çikaqo Universiteti ilə birləşdirilməsi təklifi hər iki ali məktəb tərəfindən rədd edilib. II Dünya müharibəsi dövründə Amerikanın digər ali təhsil ocaqları kimi, Şimal-Qərb Universiteti də dəyişikliyə məruz qalıb. 1939-1949-cu illərdə 50 mindən çox əsgər Evanston və Çikaqo kampuslarında təlimlər keçib. Müharibədən sonra universitetin prezidenti G.Bill təyin edilir və onun rəhbərliyi altında hər iki kampus genişləndirilib. 1948-ci ildə tanınmış antropoloq Melvill Herskovits Şimal-Qərb Universitetində Amerika universitetləri arasında birinci olaraq Afrika Tədqiqatları bölməsini yaradıb. 1949-1970-ci illərdə universitet sürətlə inkişaf edib, müəllim və tələbələrin sayı artıb, yeni-yeni tədris proqramları qəbul edilib, fakültələr yaradılıb, kampuslar genişlənib. 1978-ci ildən başlayaraq Şimal-Qərb Universiteti və Evanston şəhər bələdiyyəsi arasında vergilərlə bağlı gərginlik yaşanıb və iş federal məhkəməyə qədər çatıb, lakin 2004-cü ildə məsələ məhkəməsiz həll olunub.1970-1980-ci illərdə ABŞ dövləti universitetlərə edilən yardımların məbləğini xeyli azaldıb. Buna baxmayaraq, Şimal-Qərb Universitetinin prezidenti Arnold Veber rəhbərlik etdiyi təhsil ocağının maliyyə işlərinə nəzarət edib və stabil qalmasına nail olub. Hazırda Şimal-Qərb Universiteti ABŞ-ın sürətlə inkişaf edən özəl ali məktəblərindən birinə çevrilib.

## Universitet bu gün

Şimal-Qərb Universiteti Evanston və Çikaqo kampuslarından ibarətdir. Universitetin Qətərin Doha şəhərində də filialı yerləşir. Evanston kampusu Miçiqan gölündən başlayaraq şimaldan cənuba - Sentral Stritə doğru uzanır və 240 akrlıq ərazini əhatə edir. Kampusun şimal hissəsində Henri Kraun İdman pavilyonu və digər idman kompleksləri, Texnologiya İnstitutu, Dirborn Rəsədxanası və s. yerləşdiyi "Qardaşlıq kvadratı" şəhərciyi mövcuddur. Cənub hissədə isə humanitar elmlərin öyrənildiyi təhsil mərkəzləri, Pik Ştaqer musiqi zalı, qadın klubu yerləşir. Kampusun cənub hissəsi Evanston şəhərinin mərkəzinin yaxınlığındadır. Çikaqo kampusu Çikaqo şəhərinin Sritervill ərazisində 25 akrlıq sahədə yerləşir. Burada hospitallar, Tibb, Hüquq, Biznes, Təhsilin davam etdirilməsi məktəbləri fəaliyyət göstərir. Şimal-Qərb Universitetinin Qətərin Doha şəhərində yerləşən filialı 2008-ci ildə yaradılıb. Medill Jurnalistika və Kommunikasiya məktəbləri burada tələbələrə bakalavr dərəcəsi üzrə təhsil təklif edir. Qətər Təhsil, Elm və İctimai İnkişaf Fondu filialın inkişafı üçün maliyyə yardımı göstərir.

Şimal-Qərb Universitetinin nəzdində Veynberq İncəsənət və Elmlər, Kommunikasiya, Təhsil və İctimai Siyasət, Makkormik Mühəndislik və Tətbiqi Elmlər, Medill Jurnalistika, Hüquq, Kelloq İdarəetmə, Feynberq Tibb, Bienen Musiqi, Fasiləsiz Təhsil, Ali (magistr və doktorantlar üçün) məktəbləri, eləcə də Qarret-Yevangelist İlahiyyat Seminariyası fəaliyyət göstərir. Veynberq İncəsənət və Elmlər Məktəbi universitetin tərkibində fəaliyyət göstərən 11 məktəbin arasında xüsusi çəkiyə malikdir. Məktəb 1851-ci ildə yaradılıb və 25 bölmədən ibarətdir. Burada tələbələrə bakalavr, magistr və doktorluq dərəcələri təklif edilir. Məktəbdə 15 fənlərarası proqram mövcuddur (Amerika, Avropa tədqiqatları, birləşdirilmiş elmlər, hüquqşünaslıq, riyazi təcrübə, siyasi elmlər sahəsində riyazi metodlar və s.). Bu proqramların hər birinin xüsusi qəbul tələbləri var. Veynberq İncəsənət və Elmlər Məktəbində çoxlu sayda əcnəbi tələbə təhsil alır. Kommunikasiya Məktəbi 1878-ci ildə yaradılıb və Evanston kampusunda yerləşir. Məktəbdə kommunikasiya elmləri; kommunikativ tədqiqatlar; media, texnologiya və cəmiyyət; texnologiya və sosial davranış; radio, televiziya, film; teatr; teatr və dram; ekran üçün yazı (ssenari) və səhnə fakültələri mövcuddur. Təhsil və İctimai Siyasət Məktəbi 1926-cı ildə yaradılıb. Məktəb mövcud təhsilin tədqiqatı ilə məşğuldur. Makkormik Mühəndislik və Tətbiqi Elmlər Məktəbi 1909-cu ildə yaradılıb. 1996-cı ildə məktəbdə bütün tələbələr üçün məcburi tədris edilən Texniki Layihə və Kommunikasiya (EDC) mühəndislik proqramı qəbul edilib və Texniki Analiz proqramı mövcuddur. Bu proqram çərçivəsində məktəbdə xətti cəbr, sabitlik və dinamika, sistemlər dinamikası və diferensial tənliklər, MATLAB kompüterin proqramlaşdırma dili öyrədilir.

Medill Jurnalistika Məktəbi 1921-ci ildə yaradılıb. 2002-ci ildə burada McKormik Tribune adlı peşəkar televiziya studiyası və çoxsaylı multimedia auditoriyaları açılıb. Məktəb jurnalistika sahəsi üzrə bakalavr və magistr dərəcələri təklif edir, xüsusilə tələbələrinə kütləvi informasiya vasitələrinə yalnız doğru məlumatı çatdırmağı öyrədir. Hüquq Məktəbi universitetin Çikaqo kampusunda yerləşir və 1859-cu ildə yaradılıb. Şimal-Qərb Universitetinin Hüquq Məktəbi ABŞ-ın mükəmməl hüquq təhsili verən məktəblərindən biridir və reytinqlərdə əksərən yuxarı pillələri tutur. Məktəb tələbələr üçün 6 elmi jurnal nəşr edir. Məktəb bakalavr, magistr, doktorluq (Juris Doktor -JD), JD-MBA dərəcələri verir. Kelloq İdarəetmə (Menecment) Məktəbi 1908-ci ildə yaradılıb və Çikaqo kampusunda yerləşir. Məktəb Çin, Hindistan, Honkonq, İsrail, Almaniya, Kanada və Tailandın ali təhsil müəssisələri ilə əməkdaşlıq proqramları həyata keçirir. Burada analitik konsaltinq, maliyyə, beynəlxalq biznes, menecment və təşkilatçılıq, idarəçilik iqtisadiyyatı, insan resurslarının idarəolunması, sahibkarlıq və innovasiya, mühasibat və informasiyanın idarəolunması, marketinq və s. fakültələr mövcuddur. Məktəb MBA və PhD dərəcələri təklif edir.

Feynberq Tibb Məktəbi Çikaqo kampusunda yerləşir və 1859-cu ildə yaradılıb. Bu təhsil ocağı ABŞ-ın qabaqcıl tibb müəssisələrindən olan Şimal-Qərb Universitetinin MakQo Tibb Mərkəzinin bir hissəsidir. Təhsillərinin ilk iki ilində tələbələrə insan orqanizmi, mədə-bağırsaq traktı, anatomiya, fiziologiya, biokimya, farmakologiya və histologiya öyrədilir. Üçüncü ildən başlayaraq ixtisas fənləri tədris edilir. Məktəbdə daxili təbabət, pediatriya, ginekologiya, cərrahiyyə və ilkin tibbi yardım, oftalmologiya, otolarintologiya, urologiya, anesteziologiya və s. fakültələr fəaliyyət göstərir. 1990-cı ildən burada müasir biotibbi elmlərin fənlərarası hazırlığı məqsədi ilə Kompleks Magistratura Proqramları (IGP) həyata keçirilir. Henri Li Bienen musiqi məktəbi 1895-ci ildə yaradılıb. 2008-ci ildə Şimal-Qərb Universitetinin prezidenti Henri Bienen və onun xanımı Li Bienenin şərəfinə məktəbə hazırkı adı verilib. Burada orkestr musiqiləri, caz tədqiqatları, musiqişünaslıq, musiqinin tarixi, tərbiyəvi musiqi, musiqi texnologiyaları, musiqi nəzəriyyəsi və digər fakültələr mövcuddur. Məktəb 16 kollektivdən ibarətdir: simfonik orkestr, kamera orkestri, xor kapellası, barokko musiqisi ansamblı, caz orkestri və s. Məktəb çox zəngin musiqi kitabxanasına malikdir. Fasiləsiz Təhsil Məktəbi 1933-cü ildə yaradılıb və Çikaqo kampusunda yerləşir. Məktəb tələbələrə, doktorantlara, ixtisas artırmaq istəyən şəxslərə fasiləsiz təhsil vermək məqsədi daşıyır. Burada, əsasən, işləyən şəxslər təhsil aldığından dərslər axşam saatlarında və həftə sonları keçilir. Məktəb bakalavr səviyyəsi çərçivəsində fəlsəfə bakalavrı, ümumi tədqiqatlar üzrə elmlər bakalavrı, kommunikasiya sahəsi üzrə fəlsəfə bakalavrı, magistr səviyyəsi çərçivəsində isə kompüter informasiya sistemləri üzrə elmlər magistri, ədəbiyyat sahəsi, humanitar elmlər, tibbi informatika, dövlət siyasəti və idarəetmə, eləcə də digər sahələr üzrə elmlər magistri dərəcələri təklif edir.

Ali (magistr və doktorantlar üçün) Məktəb 1910-cu ildə yaradılıb və Evanston kampusunda yerləşir. Məktəb 70 sahə üzrə elmi dərəcələr təklif edir. Qarret-Yevangelist İlahiyyat Seminariyası Evanston kampusunda yerləşir və 1853-cü ildə yaradılıb. Seminariya ilahiyyat sahəsi üzrə magistr və doktorluq dərəcələri təklif edir. Şimal-Qərb Universitetində dünya elminə yeni-yeni nailiyyətlər bəxş edən Kompleks Sistemlər İnstitutu, Nanoölçülü Elmlər və Texnika, Materiallar Tədqiqatı, Günəş Enerjisi, Müqayisəli Tədqiqatlar mərkəzləri, Siyasi Tədqiqatlar, Beynəlxalq Nanotexnologiyalar institutları fəaliyyət göstərir.

Şimal-Qərb Universitetinin kitabxana sisteminə 4,9 milyon cild kitab, 4,6 milyon mikroforma, 99000 dövri nəşr, eləcə də 700 verilənlər bazası və 6000 elektron jurnal daxildir. Universitetin Evanston kampusunda, əsas kitabxana daxil olmaqla dörd, Çikaqo kampusunda üç, Qarret-Yevangelist və Seaburi-Vestern seminariyaları ilə əlaqəli iki kitabxanası mövcuddur. Universitetdə Afrika mədəniyyətinə aid dünyada ən zəngin kolleksiyaya malik Melvill Herskovits adına Afrika Tədqiqatları Kitabxanası yerləşir. Burada qədim əlyazmalar, müxtəlif əsrlərə aid incəsənət nümunələri, musiqi əsərləri və s. resurslar saxlanılır. Universitetin kitabxanası kolleksiyalarını "Google" kitab axtarış sistemi vasitəsilə İnternetdə oxucuların istifadəsinə verib. Şimal-Qərb Universitetinin Meri və Li Blok İncəsənət Muzeyi Çikaqonun əsas incəsənət mərkəzlərindən biridir. Burada 4000-dən çox sənət nümunələri qorunur və bu rəqəmlər mütəmadi artmaqdadır. Şimal-Qərb Universitetində idmana böyük diqqət yetirilir. Burada 19 idman komandası (11 qızlardan və 8 oğlanlardan ibarət komandalar), çoxlu sayda idman klubları, fitnes mərkəzləri fəaliyyət göstərir. Hər il universitet rəqs marafonu keçirir. Bu vaxta qədər xeyriyyə marafonu çərçivəsində 13 milyon dollar vəsait toplanıb ki, bu da müxtəlif uşaq təşkilatlarına verilib.

Şimal-Qərb Universitetinin tələbələri hər bir şəraitlə təmin edilmiş yataqxanalarda qalırlar. Bunlardan İst Ferçayld, Hobart, Şepart, Hinman, Elder, Bobb, Uillard və digər çoxlu sayda yataqxanaların adlarını çəkmək olar. Şimal-Qərb Universiteti innovativ tədris və novator tədqiqatları özündə cəmləşdirərək ənənəvi akademik çərçivədən kənara çıxır. Universitet Çikaqonun zəngin mühiti əsasında tələbə və müəllimlərin şəxsi, intellektual və peşəkar yüksəlişi üçün müstəsna imkanlar yaradır.

## Büdcəsi və təhsil haqları

Şimal-Qərb Universitetinin 2016-2017-ci tədris ilində endaument fondunun ümumi həcmi 10.5 milyard ABŞ dollarına çatıb. Ötən dərs ilində universitetin illik gəlirləri ümumilikdə 2.150.2 milyard ABŞ dollarına bərabər olub. Həmin məbləğin 567,9 milyon ABŞ dolları (26 faizi) təhsil haqqı, 606.1 milyon ABŞ dolları (28 faiz) qrant və sazişlər, 288.9 miyon ABŞ dolları (14 faiz) göstərilən xidmətlər, 215.7 milyon ABŞ dolları (10 faiz) yardımlar, 47.7 milyon ABŞ dolları (2 faiz) müxtəlif əməliyyatlar, qalanları isə digər vasitələr hesabına əldə olunan gəlirlərdir. Ötən il universitetin ümumi xərcləri 2.097.3 milyard ABŞ dolları olub. Belə ki, bu vəsaitin 427.1 milyon ABŞ dollarını (20 faiz) müxtəlif proqramlar, 549.7 milyon ABŞ dollarını (26 faiz) akademik dəstək, 369,5 milyon ABŞ dollarını (18 faiz) universitet tərəfindən tələbələrə göstərilən xidmətlər, 239.6 milyon ABŞ dollarını (11 faiz) universitetə göstərilən xidmətlər, qalanlarını isə digər xərclər təşkil edib.

2016-2017-ci tədris ilində təhsil haqları bakalavr və magistr səviyyələrində 50855 ABŞ dolları müəyyən olunub. Tələbələrin kirayə xərcləri 15489, kitab və digər vəsaitlər 1620, şəxsi xərclər 2532, digər xərclər 431 dollar təşkil edir. Əlavə xərclər də nəzərə alınarsa, tələbələrin birillik tam xərcləri 70496 ABŞ dolları təşkil edir.

Şimal-Qərb Universitetində tələbələrə müxtəlif məbləğdə çoxlu sayda kredit və təqaüdlər təklif olunur (Federal Pell, SEOG, Debt Cap, No-Loan Pledge, Fermi və s.). 2016-cı ilin məlumatına əsasən, təqaüd alan tələbələr 51 faiz təşkil edir. 2016-2017-ci tədris ilində tələbələrə maliyyə yardımlarının göstərilməsi üçün 160 milyon ABŞ dolları həcmində vəsait müəyyən olunub. Təqaüd və kreditlərin verilməsi üçün tələbələrin qarşısında bir sıra şərtlər qoyulur (çətin maliyyə durumu, xüsusi istedada malik olan, əlaçı, seçilən, tədris ilində ümumi 3 bal toplayan tələbələrə verilir, xüsusilə tələbənin ailə büdcəsinə diqqət yetirilir). Universitetin prezidenti Morton Şapiro, kansleri Daniel Linzerdir. Prezidentin 21 vitse-prezident köməkçisi var. İndiyədək universitetdə 16 prezident fəaliyyət göstərib. Universitet 70 üzvdən ibarət Qəyyumlar Şurası tərəfindən idarə olunur. Şuraya son 14 il ərzində ali məktəbin məzunu, "Aon" şirkətinin rəhbəri Patrik Rayan sədrlik edib. Ötən il P.Rayan universitetə 25 milyon ABŞ dolları hədiyyə edib. Universitetdə 7000-ə yaxın işçi heyət çalışır. İşçilərin 3401 nəfərini professor-müəllim, qalanlarını isə inzibati heyət təşkil edir. Ali məktəbin müəllimləri arasında çoxlu sayda Toni mükafatı laureatları, Makartur Fondu təqaüdçüləri, ABŞ Milli Elmlər Akademiyası, Amerika İncəsənət və Elmlər Akademiyası, Amerika Elmi Cəmiyyət Birliyinin üzvləri, fəxri professorlar var. Hazırda Şimal-Qərb Universitetində 21000 tələbə təhsil alır. Onların 8314 nəfəri bakalavr, 12646 nəfəri isə magistr və doktorantlardır. Əcnəbi tələbələr təhsilalanların 15 faizini təşkil edir. 2016-cı ilin statistikasına əsasən universitetin məzunlarının 95 faizi ali məktəbi bitirdikdən sonra ilk 6 ay ərzində işlə təmin olunur. 10 ildən sonra isə məzunların əməkhaqqısı 64200 ABŞ dolları təşkil edir.

Ölkənin aparıcı elmi-tədqiqat universitetlərindən olan ali məktəbdə 50-yə yaxın elmi-tədqiqat mərkəzi var. Burada neyrocərrahiyyə, nanotexnologiya, biotexnologiya və yeni dərman preparatlarının yaradılması üzrə tədqiqatlar aparılır. Universitet il ərzində elmi-tədqiqatlara 620 milyon dollar vəsait xərcləyir.

## Məşhur məzunları

Universitetin məşhur məzunları arasında Emos Soyyer (Liberiyanın sabiq prezidenti), Ram Emanuel (Çikaqo şəhərinin indiki meri, Ağ Ev administrasiyasının sabiq rəhbəri), Corc Boll (diplomat, ABŞ dövlət katibinin sabiq müavini), Corc MakQovern (sabiq senator), Edli Stivenson (ABŞ-ın BMT-də sabiq səlahiyyətli səfiri), Artur Cozef Holdberq (ABŞ-ın BMT-də sabiq səlahiyyətli səfiri), Con Pol Stivens (ABŞ Ali Məhkəməsinin sabiq hakimi), Den Kronin (İllinoys ştatının sabiq senatoru), Eduardo Mondlane (Mozambikin inqilabi hərəkatının rəhbəri), Uindli Çemberlin (ABŞ-ın Pakistanda sabiq səlahiyyətli səfiri), Edvard Ueyler (NASA-nın elmi işlər üzrə direktor müavini, astrofizik), Devid Skorton (Kornell Universitetinin prezidenti), Qrem Spenyer (Pensilvaniya Ştatı Universitetinin prezidenti), Duqlas Konantın ("Campbell Soup" kompaniyasının prezidenti) adlarını çəkmək olar. Ali məktəb Nobel mükafatı laureatları ilə də tanınır. Onlardan Corc Stiqleri (iqtisadiyyat üzrə), yazıçı Saul Bellounu (ədəbiyyat üzrə) göstərmək olar. Bu sırada 2016-cı ildə kimya sahəsində Nobel mükafatına layiq görülmüş professor Frezer Stoddartın da adını çəkmək olar.

**Oruc MUSTAFAYEV,**
*"Azərbaycan müəllimi"*